# Qarabağ yenidən qurulur, ona yaraşan yeni həyat bəxş edilir

***Qırx dörd günlük Vətən müharibəsi nə qədər fəxr ediləsi, qürur duyulası məqamlara yol açdı. Şükür olsun bu günə, eşq olsun Azərbaycan Prezidentinə ki, xarabalığa çevrilmiş şəhər, rayon və kəndlərimizdə onun göstərişi ilə "ağıllı şəhər", "ağıllı kənd" layihələri çərçivəsində abadlıq-quruculuq işlərinə start verilib. Bu işlərin, il yarımdan çox pandemiya şəraitində yaşadığımıza baxmayaraq, həyata keçirilməsi məhz ölkə rəhbərinin iradəsi, istəyi, qətiyyəti və nüfuzu sayəsində baş tutur.***



Hazırda dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Qarabağda nəhəng quruculuq işləri aparılır. Biz fəxr etməliyik ki, Azərbaycan qurucu bir dövlətdir. Erməni işğalından azad olunmuş ərazilərin yenidən bərpası üçün həyata keçirilən layihələr bunun bariz nümunəsidir. Biz doğma torpaqlarımızı yenidən öz əvvəlki gözəlliyinə, əzəmətinə qaytaracaq, bu torpaqları əkib-becərəcəyik, yaşayacaq, yaradacağıq. Sözsüz ki, bu gün Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işləri dövlətimizin qüdrətindən, ölkə başçısının əzmindən xəbər verir.

Bir az əvvələ qayıdaq. Bu il avqustun 30-da dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə Şuşada keçirilən Vaqif Poeziya Günlərini xatırlayaq. Qarabağın bərpası ilə bağlı dövlət başçısı tərəfindən verilən lazımi göstərişlər əsasında, 8 ay ərzində artıq çox böyük işlər görülüb. Şuşanın bərpasına 14 yanvardan başlanıb və ilk növbədə, inkişafa, tərəqqiyə aparan yol çəkilib – Zəfər yolu! İndi Füzuli şəhərindən tunellər daxil olmaqla, daha qısa, magistral yol çəkilir. Qarabağda gedən quruculuq işlərindən danışarkən deməliyik ki, öncə Şuşanın elektrik təsərrüfatı bərpa edilib, yüksəkgərginlikli xətlər çəkilib və yarımstansiya tikilib. Düşmənin Şuşanı tərk edərkən partlatdığı su xətləri bərpa edilib və indi iki mənbədən Şuşaya su gəlir. Ermənilər tərəfindən Şuşada qurudulan 17 bulağın hamısı bərpa olunub. Bundan başqa Şuşanın tarixi abidələrinin bərpası üzərində iş gedir. Molla Pənah Vaqifin məqbərəsi və büstü artıq bərpa edilib. Yuxarı Gövhər Ağa məscidinin təmiri, demək olar ki, bitib. Saatlı və Aşağı Gövhər Ağa məscidlərinin təmiri ilə bağlı göstərişlər verilib. Bu məscidlərin təmirini yenə də Heydər Əliyev Fondu öz üzərinə götürüb. "Xarıbülbül" oteli istifadəyə verilib. X.Natəvanın, Ü.Hacıbəylinin, Bülbülün ermənilər tərəfindən güllələrlə dəlik-deşik edilmiş büstləri gətirilib və mərkəzi meydanda yerləşdirilib. Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyulub. Onun dağıdılmış evinin bərpası ilə bağlı göstəriş verilib. Bülbülün oğlu tərəfindən bərpa edilən evinin açılışı olub. "Qarabağ" oteli əsaslı təmirdən sonra yenidən qonaqların üzünə öz qapılarını açıb. Şuşada yeni beşulduzlu otel və konfrans mərkəzi tikiləcək. Amma bu tədbirlərin içində ən önəmlisi yeni yaşayış kompleksinin təməl daşının qoyulmasıdır ki, oraya illərlə doğma yurd həsrəti çəkən şuşalılar qayıdacaq.

Oktyabrın 26-da Zəngilanın Ağalı kəndində Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxış etdilər. Dövlət başçımız qardaş ölkə rəhbərinin Qarabağdan dünyaya çıxış olan Füzuli Hava Limanının açılışında iştirak etməsini yüksək qiymətləndirdi. Səfər zamanı Azərbaycanın işğaldan azad edilən bu bölgələrinin qısa müddət ərzində həqiqətən necə dirçəldiyini, necə sürətlə inkişaf etdiyini görən Ərdoğan bildirdi ki, bu, hər igidin, hər siyasətçinin işi deyil. Bu qədər qısa müddətdə bu investisiyaları yatırmaq, bu işləri həyata keçirmək, inanıram ki, doğma yurdundan ayrılmağa məcbur qalmış insanlar üçün buradan bir xoş xəbər vermək imkanı yaradır: "Çünki azərbaycanlı qardaşlarım ayrıldıqları torpaqlara, inanıram ki, ən qısa vaxtda son dərəcə gözəl şəkildə inşa edilən, canlandırılan bu yerlərə qayıtmaq imkanı əldə edəcəklər. Burada qarşımızdakı binaya, sol tərəfimizdəki binalara baxırıq. Bu binalar orijinal, tarixi üslubda son dərəcə gözəl bir şəkildə inşa edilir".

Həmin gün Azərbaycan və Türkiyə prezidentləri həmçinin Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış oldular. Zəngəzur dəhlizinin – Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd avtomobil yolunun təməlini qoydular! Bu gün-sabah Zəngilan, Laçın hava limanlarının da açılışı olacaq. Ağdamda şəhər planlaması, quruculuq prosesi, infrastruktur layihələrin həyata keçirilməsi açıq-aydın görünür. Çoxmərtəbəli bina tikintisi üçün işlək kran, "ağıllı şəhər"in baş planına uyğun təməlatmalar, yeni ünvanların göstəriciləri, nişanlar – Ağdamın gələcək günlərindən xəbər verir. Bir sözlə, Qarabağda həyat qaynayır: tikilir, qurulur, bərpa edilir, abadlıq aparılır.

İnanırıq və sevinirik ki, tezliklə bölgədə əvvəlkindən də gözəl yaşayış məhəllələri tikiləcək, öz doğma evlərindən didərgin düşənlər el-obalarına qayıdacaq və burada yaşayışlarına davam edəcəklər. Zəngilanda tikilən müasir, hər cür şəraiti olan evlər bunu deməyə əsas verir. Qarabağda yeni dövr başlayır: abadlıq, quruculuq, yeniləşmə, müasirləşmə dövrü. Qarabağ öz tarixi, mədəniyyəti, musiqisi, qan yaddaşı ilə yenidən doğulur, dirçəlir.

***Sahib CƏFƏROV,***
***"Leyla" Klinikasının***
***şöbə müdiri***

Xalq qəzeti .- 2021.- 2 noyabr.- S.7.